*Vətən bölünməzdir!*



# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 21-22 (8283) ● Şənbə, 20 iyun 2015-ci il ● Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ● Qiyməti 50 qəpik


## AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 140 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**2015**-ci ildə Azərbaycan milli mətbuatının yaranmasının 140 ili tamam olur. XIX əsrin ortalarında ölkəmizdə gedən siyasi, iqtisadi və mədəni proseslər maarifçilik hərəkatının inkişafına, ictimai fikrin yeni ifadə vasitəsi olan mətbuatın meydana gəlməsinə şərait yaratmışdır. 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli-mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır.

Ötən yüzilliyin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olmuş, ölkə əhalisi arasında internet yayımı 75 faizə çatmış, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşmışdır. 2008-ci ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq milli mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, sosial təminatının yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.



Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Qlobal informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial olmalı, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutmalıdırlar. Mətbuatımız ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

**Azərbaycan milli mətbuatının ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı yerini, vətəndaş cəmiyyətinin inkişafı, milli-mənəvi dəyərlərin təbliği, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsindəki rolunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 140 illik yubileyi Azərbaycan Respublikasında geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. Jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**


*15 İyun Milli Qurtuluş günüdür*



Səh. 2



Səh. 3

*Dəyirmi masa*

*I Avropa Oyunlarının açılışı*



Səh. 4



Səh. 5

*I Avropa Oyunlarında*

*Yollar asfaltlanır...*



Səh. 6

# 15 İYUN - MİLLİ QURTULUŞ, MİLLİ QÜRUR GÜNÜMÜZ





15 İyun - Milli Qurtuluş günü Respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da böyük təntənə və coşqu ilə qeyd edildi.

İyunun 13-də dünya şöhrətli siyasətçi, müasir dövlətçiliyimizin memarı Heydər Əliyevin adını daşıyan Xatirə Parkında Ulu Öndərin abidəsi ziyarət edildi, dahi rəhbərin əziz xatirəsi dərin ehtiramla yad olundu.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov əzəmətli abidənin önünə təzə-tər güllər qoydu, ehtiram əlaməti olaraq təzim etdi.

Sonra hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri Ümummilli Liderin əzəmətli abidəsi önünə gül dəstələri düzdülər.

Axırda ümumxalq ziyarəti başlandı.

## "HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN XİLASKARIDIR" MÖVZUSUNDA ELMİ-PRAKTİK KONFRANS



İyunun 13-də Milli Qurtuluş Günü münasibətilə Lənkəran Şəhər İcra Hakimiyyətinin iclas zalında "Heydər Əliyev Müstəqil Azərbaycanın xilaskarıdır" mövzusunda elmi-praktik konfrans keçirildi.

Konfransı giriş sözü ilə açan İcra başçısı Taleh Qaraşov əvvəlcə iştirakçıları I Avropa Oyunlarının başlanması münasibətilə təbrik etdi. Tarixdə ilk dəfə keçirilən I Avropa Oyunları ilə Azərbaycanın öz potensialını dünyaya nümayiş etdirəcəyini xüsusi vurğulayan İcra başçısı sonra ölkəmizdə qazanılan bütün bu nailiyyətlərin kökündə Ulu Öndər Heydər Əliyev siyasətinin durduğunu diqqətə çatdırdı.

XX əsrdə Azərbaycanın 2 dəfə - 1918-ci il mayın 28-də və 18 oktyabr 1991-ci il tarixdə dövlət müstəqilliyini əldə etdiyini söyləyən Taleh Qaraşov bu müstəqilliyin ilk illərində naşı rəhbərlərin əlilə xalqımızın başına gətirilən müsibətlərdən, ölkəmizdə hökm sürən xaos, anarxiya və özbaşınalıqlardan ətraflı danışdı. Məhz belə bir çətin məqamda Ulu Öndər Heydər Əliyev əsl xilaskar kimi xalqın harayına çatdı, millətinə yeni nəfəs, yeni bir həyat gətirdi, – deyə İcra başçısı qeyd etdi.

T.Qaraşov daha sonra bildirdi ki, 15 iyun Azərbaycanın və hər bir Azərbaycan vətəndaşının taleyində, yaddaşında əbədi həkk olunan tarixi günlərdən biridir. Kəsb etdiyi əhəmiyyətə görə bu tarix sözün həqiqi mənasında həm xalqımızın, həm də dövlətçiliyimizin və müstəqilliyimizin əsl qurtuluşu günüdür. 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkəmizdə vətəndaş müharibəsi təhlükəsinin baş verməsi, qardaş qanının axıdılması və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yaranmışdı. Ölkənin qərbində – Gəncədə Surət Hüseynovun dəstəsi qiyam qaldırdı, qardaş qardaşı qətlə yetirdi, cənubda Ə.Hümbətovun başçılığı altında separatçı qüvvələr Talış-Muğan Respublikası yaratdılar, şimalda sadvalçılar Ləzgistan respublikası yaratmağa cəhd göstərdilər. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev belə bir çətin məqamda böyük uzaqgörənliklə Azərbaycanımızı labüd parçalanmadan xilas edib ərazi bütövlüyümüzü, milli birliyimizi qoruya bilmişdi.

İcra başçısı vurğuladı ki, Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra özünün qırılmaz iradəsi sayəsində yenicə müstəqilliyini qazanmış Azərbaycanı daxili çəkişmələrə sövq etmiş səriştəsiz və bacarıqsız rəhbərlərdən, silahlı quldur dəstələrindən təmizlədi. Ölkədə qardaş qırğınının qarşısı alındı. Aparılan islahatlar nəticəsində Respublika surətli iqtisadi inkişaf yoluna qədəm qoydu. Xalqın maddi və mənəvi həyat səviyyəsi yüksəldi. Ölkəmiz dünya birliyində layiqli yerlərdən birini tutdu. Onun beynəlxalq nüfuzu artdı. Bir sözlə, müstəqilliyimiz əbədi və dönməz oldu.

Taleh Qaraşov daha sonra Ulu Öndərin siyasətini uğurla davam etdirən möhtərəm cənab Prezident İlham Əliyevin titanik fəaliyyətindən, milli dövlətçiliyimizin möhkəmləndirilməsində, Vətənimizin tərəqqisi və xalqımızın rifahı naminə həyata keçirdiyi qlobal işlərdən, "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" kəlamını əməli işi ilə sübuta yetirməsindən, Lənkəranın həmişə cənab Prezidentin diqqət və qayğısı ilə əhatə olunmasından, rayonumuzda aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq və səliqə-sahman işlərinin gündən-günə sürətlənməsindən, Lənkəranın öz müasir simasını alması istiqamətində görülən işlərdən və qarşıda duran vəzifələrdən ətraflı bəhs etdi, axırda bütün lənkəranlıları cənab İlham Əliyevin ətrafında sıx birləşməyə çağırdı, hamını bir daha I Avropa Oyunlarının başlanması və Milli Qurtuluş Günü münasibətilə təbrik etdi.

Digər natiqlər də çıxışlarında Milli Qurtuluş gününün Azərbaycan xalqının taleyində oynadığı rolu barədə ətraflı danışdılar, xalqımıza milli tərəqqi yolunda yeni-yeni uğurlar arzuladılar.

**İ.ƏHMƏDOV,**
**Ə.BƏDƏLOV (foto)**

## QURTULUŞUMUZ VƏ XİLASKARIMIZ

İyunun 15-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Milli Qurtuluş gününə həsr olunmuş "Qurtuluşumuz və Xilaskarımız" adlı tədbir keçirilib. ADDIM Gənclər Təşkilatının, Gənclər üçün Təhsil Mərkəzinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan Lənkəran ŞİH-nin məsul işçisi Tahir Zülfüqarov xalqımızın Qurtuluş gününün tarixinin hal-hazırki müstəqil Azərbaycan üçün əhəmiyyətli bir tarix olduğunu qeyd edib.

Daha sonra çıxış edən Gənclər üçün Təhsil Mərkəzinin rəhbəri Fəxrəddin Həsənzadə Azərbaycan xalqının bugünkü inkişafı, tərəqqisi üçün Ulu Öndər Heydər Əliyevin gördüyü misilsiz xidmətlərindən söz açıb.

ADDIM Gənclər Təşkilatının rəhbəri Hüseyn Cavadzadə isə çıxışında Dahi Öndər və xilaskarın şərəfli ömür yolu və fəaliyyətindən, onun Azərbaycan tarixindəki önəmli rolundan danışıb. Natiq Azərbaycan gəncliyini Öndərimizin yaratdığı sivil və demokratik cəmiyyətin layiqli vətəndaşları olmağa səsləyib.

Sonda tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin 1992-1993-cü illərdəki siyasi fəaliyyətini əks etdirən sənədli filmə tamaşa ediblər.



# TİBB İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI

İyunun 16-da Lənkəranda Tibb işçilərinin peşə bayramı münasibətilə tədbir keçirildi.

Əvvəlcə tədbir iştirakçıları Heydər Əliyev Xatirə Parkında Ümummilli Liderin abidəsini ziyarət etdilər, abidənin önünə gül dəstələri qoydular.



"Şah sarayı"nda keçirilən tədbirdə MRX-nın baş həkimi Ağabala Kəlbiyev həmkarlarını peşə bayramı münasibətilə təbrik etdi, Ulu Öndər Heydər Əliyevin səhiyyəmizin inkişafı ilə bağlı tarixi xidmətlərindən danışdı, hazırda bu siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən söz açdı.

Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov əvvəlcə tədbir iştirakçılarını I Avropa Oyunlarının başlanması və Milli Qurtuluş Günü münasibətilə təbrik etdi. Peşə bayramı münasibətilə bütün səhiyyə işçilərini təbrik edən İcra başçısı bildirdi ki, həkimlər cəmiyyətimizin ən hörmətli və fədakar üzvləridir. Ağ xalatlı tibb işçiləri sağlamlığımızın keşiyində həmişə ayıq-sayıq durmuş, şərəfli peşə sahibləri kimi böyük nüfuz qazanmışlar.

Sonra səhiyyə sahəsində göstərdikləri səmərəli fəaliyyətinə görə bir qrup tibb işçisinə Lənkəran ŞİH-nin və MRX-nın Fəxri fərmanları və hədiyyələri təqdim edildi.

Bayram tədbirində Mamusta kənd sahə xəstəxanasının baş həkimi Şakir Qasımov, "Tərəqqi" medallı tibb işçisi Məmmədrahim Fərzullayev, MRX-nın həmkarlar təşkilatının sədri Həsənağa Cəbiyev və başqaları çıxış edərək ürək sözlərini və təbriklərini söylədilər.

Ziyafət stolu arxasında keçən və yerli müğənnilərin konsert proqramı ilə müşayiət olunan bayram tədbiri hamıya xoş ovqat bəxş etdi.

## Lənkəran rayon prokurorunun 2015-ci ilin II yarımilliyində vətəndaşların yaşayış yerləri üzrə keçirəcəyi qəbulun qrafiki

| Qəbulun keçiriləcəyi tarix və vaxt | Qəbulun keçiriləcəyi kənd (qəsəbə) və yer | Qəbulu keçirən şəxs |
|---|---|---|
| 08 iyul 2015-ci il saat 10:00 | Hirkan qəsəbəsi (ərazi nümayəndəliyinin inzibati binası) | Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Natiq Abdullayev |
| 12 avqust 2015-ci il saat 10:00 | Xanbulan kəndi (ərazi nümayəndəliyinin inzibati binası) | Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Natiq Abdullayev |
| 11 sentyabr 2015-ci il saat 10:00 | Gəgiran kəndi (ərazi nümayəndəliyinin inzibati binası) | Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Natiq Abdullayev |
| 14 oktyabr 2015-ci il saat 10:00 | Mamusta kəndi (ərazi nümayəndəliyinin inzibati binası) | Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Natiq Abdullayev |
| 11 noyabr 2015-ci il saat 10:00 | Separadi kəndi (ərazi nümayəndəliyinin inzibati binası) | Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Natiq Abdullayev |
| 10 dekabr 2015-ci il saat 10:00 | Zövlə kəndi (ərazi nümayəndəliyinin inzibati binası) | Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Natiq Abdullayev |

# "MİLLİ QƏHRƏMANLARIN TƏBLİĞİ VƏ MEDİA MÜTƏŞƏKKİLLİYİ: MÖVCUD DURUM VƏ PERSPEKTİV VƏZİFƏLƏR" MÖVZUSUNDA DƏYİRMİ MASA

İyunun 10-da Lənkəran Şəhər Mərkəzi Kitabxanasında "Milli Qəhrəmanların təbliği və media mütəşəkkilliyi: mövcud durum və perspektiv vəzifələr" mövzusunda "dəyirmi masa" keçirilib. "Zərdabi Mətbuat Mərkəzi" İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə reallaşdırdığı "Milli-mənəvi dəyərlərimizin qorunmasına dəstək olaraq Milli Qəhrəmanların döyüş yolunun təbliğ olunması" layihəsi çərçivəsində baş tutan tədbirdə Lənkəranda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların, yerli və ətraf rayonların media qurumlarının təmsilçiləri, Qarabağ müharibəsi veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Toplantını giriş sözü ilə Lənkəran Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Asif İmanlı açaraq təmsil etdiyi bölgənin azad media dəyərlərinə hər zaman böyük önəm verdiyini vurğulayıb. Ölkədə aparılan geniş abadlıq və quruculuq işlərinin Lənkərandakı konkret nümunələri barədə söz açan A.İmanlı yerli kütləvi informasiya vasitələrinin bu proseslərdə öncül mövqe tutduğunu diqqətə çatdırıb. O, həmçinin qədim və zəngin ənənələrə malik Lənkəranın həmişə qəhrəmanlıq salnaməsi ilə zənginliyini önə çəkib, rayonun 5 Milli Qəhrəmanının olduğunu vurğulayıb. Müharibədə şəhid və əlil olmuş insanların ailə üzvlərinin qayğı ilə əhatə edilməsinə xüsusi diqqət yetirən A.İmanlı habelə Lənkəranda milli-vətənpərvərlik təbliğatının artırılması ilə bağlı gerçəkləşdirilməkdə olan tədbirlərdən söz açıb.

"Zərdabi Mətbuat Mərkəzi" İB-nin sədri, "Milli-mənəvi dəyərlərimizin qorunmasına dəstək olaraq Milli Qəhrəmanların döyüş yolunun təbliğ olunması" layihəsinin koordinatoru Rəhim Hüseynzadə bildirib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə gerçəkləşdirilməkdə olan layihə 2015-ci ilin aprel-iyul aylarını əhatə edir. "Lənkərandakı "dəyirmi masa"mız layihə çərçivəsindəki sayca ikinci tədbirimizdir. İlk belə tədbir Salyanda baş tutmuşdu. Bu mövzudakı növbəti toplantının məkanı isə İsmayıllı rayonu olacaq. Azərbaycanın hər bir bölgəsi özündə qəhrəmanlıq salnaməsini yaşadır. Bu mənada Lənkəranın da mühüm rolu var. Məlum olduğu kimi, Lənkəran 5 Milli Qəhrəmanın – Sultanağa Bayramovun, Etibar Əliyevin, Əsgər Əliyevin, Paşa Təhməzovun və Rövşən Abdullayevin doğma yurdudur. Onlar Qarabağ uğrunda döyüşlərdə və dövlətçiliyimizin qorunması yolunda şəhidlik zirvəsinə ucalıblar. Toplantı məkanını seçərkən də mövcud amilə söykəndik. Vətən torpaqları uğrunda canından keçmiş soydaşlarımızın əziz xatirəsini yaşatmaq təkcə mənəvi borc deyil, eyni zamanda, Azərbaycanın gələcəkdə də müstəqil dövlət kimi öz varlığını qoruması baxımından son dərəcə önəmlidir. Layihəmiz də bu məqsədlə cəmiyyətdə vətənpərvərlik hissinin gücləndirilməsini, Milli Qəhrəmanlarımızın rəşadətli həyat yolunun cəmiyyətə yaxından çatdırılmasını nəzərdə tutan təşəbbüsdür", – deyə R.Hüseynzadə əlavə edib.

"Milli-mənəvi dəyərlərimizin qorunmasına dəstək olaraq Milli Qəhrəmanların döyüş yolunun təbliğ olunması" layihəsinin eksperti, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə çıxışında cəmiyyətdə mənəvi dəyərlərin qorunmasının vacibliyini əsaslandırıb. O, bildirib ki, sağlam ailələrin olduğu cəmiyyətdə Vətən üçün layiqli vətəndaşların da yetişməsi labüddür. "Ümumən vətənpərvərlik hisslərinin təbliğinə hər zaman böyük ehtiyac var. Bu təbliğatda media xüsusi missiya yerinə yetirməkdədir", – deyən S.Verdizadə dünya miqyasında vətənpərvərlik təbliğatının müxtəlif forma və metodları barədə də məlumat verib.

"Ərgünəş" Nəşriyyatının direktoru, yazıçı-publisist Oqtay Əliyev Milli Qəhrəmanların örnək səciyyə daşıyan həyat yolunun təbliğinin xüsusən də gənc nəslin mənəvi tərbiyəsi baxımından əhəmiyyətliliyini vurğulayıb. O, müəllifi olduğu "Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları" kitabının da məhz bu baxımdan qələmə alındığını diqqətə çatdırıb. Milli Qəhrəmanlara münasibətin Ulu Öndər Heydər Əliyev nümunəsindən misallar çəkib. Bu dəst-xəttin Prezident İlham Əliyev tərəfindən də davamının bütövlükdə cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb etdiyini dilə gətirib. O, həmçinin Azərbaycan dövlətinin qəhrəman övladlarımızın media müstəvisindəki təbliğinə yönələn layihəyə dəstək verməsini yüksək qiymətləndirib.

II qrup müharibə əlili Ruziyyə Əmirova medianın Vətən uğrunda döyüşlərin iştirakçısı olan qadınların təbliğinə az yer ayırması barədə iradlarını səsləndirib. "Zərdabi Mətbuat Mərkəzi" İB-nin sədri R.Hüseynzadə bu fikirlərin obyektiv səciyyə daşıdığını nəzərə çatdıraraq Lənkəranın çeşidli KİV-lərə malik olduğunu vurğulayıb. O, təklif edib ki, məhz bu amili nəzərə alaraq şəhər rəhbərliyi yerli mediada həmin mövzunun daha fəal və peşəkarlıqla işıqlandırılması üçün müsabiqə təşkil edə bilər.

"Dəyirmi masa"da çıxış edənlərdən "Olaylar" qəzetinin bölgə müxbiri Hafiz Mirzə, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Əlisəfa Ağayev, "Lənkəran" qəzetinin baş redaktoru İltifat Əhmədov, "Respublika" qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov, Lənkəran şəhər 10 saylı tam orta məktəbin direktoru Qadir Axundov, "Astara" qəzetinin baş redaktoru Azər Abdullayev və başqaları "Zərdabi Mətbuat Mərkəzi" İB-nin layihəsinin əhəmiyyətindən söz açaraq cəmiyyətdə vətənpərvərlik hisslərinin təbliğinə hər zaman böyük ehtiyacın duyulduğunu bildiriblər. Onlar bu prosesdə medianın roluna dair maraqlı nümunələr göstəriblər.

№ 21-22 (8283) 20 iyun 2015-ci il

LƏNKƏRAN

# I AVROPA OYUNLARININ AÇILIŞI MÖHTƏŞƏMLİYİ İLƏ YADDA QALDI






I Avropa Oyunlarının açılışı mərasimi 12 iyun 2015-ci ildə Bakının Olimpiya stadionunda baş tutmuşdur. 17 gün davam edəcək Birinci Avropa Oyunlarında avropanın 50 ölkəsinin 6 min idmançısı 20 idman növü üzrə 253 medal uğrunda yarışacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev I Avropa Oyunlarının rəsmi açılış mərasimi iştirakçıları üçün təşkil olunmuş ziyafətdə Azərbaycanda siyasi sabitliyin mövcud olduğunu qeyd edərək demişdir:

"Ölkənin uğurlu dayanıqlı inkişafı təmin edilir. İqtisadi inkişafımız da xalqımızı sevindirir. Bu il iqtisadiyyat 5 faizdən çox artıb. Son 10 il ərzində isə dünya miqyasında Azərbaycan iqtisadiyyatı ən sürətli templərlə inkişaf edib və 3 dəfədən çox artıb. Bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, biz bu Oyunları yüksək səviyyədə keçirək. Biz buna çalışmışıq və əminəm ki, qonaqlar Oyunları böyük maraqla izləyəcəklər".

Mərasim Bakı vaxtı ilə saat 21:00-da başlamış və iki saata yaxın davam etmişdir.

I Avropa Oyunlarının təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunmuşdur. Açılış mərasiminin bədii rəhbəri 2004-cü ildə Afina Olimpiya Oyunlarında mərasimlərin qurucusu olmuş rejissor Dimitris Papaioannoudur.

Mərasimi xanəndə Alim Qasımov canlı muğam ifası ilə açdı. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başladı. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirirdi.

Stadiona daxil olan minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtürdü. Onların ətəkləri Azərbaycan xalçalarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənmişdi. Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycan dövlət bayrağının obrazı yarandı. Səhnədən səmaya fişənglər atıldı. Şeypurçular Dmitri Şostakoviçin "Bayram uvertürası"ndan bir parça səsləndirdilər. Diqqət VİP-lojalara yönəldi və salamlama başladı. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti ilham Əliyevi, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya komitəsinin prezidenti Patrik Hikkini salamladılar.

Daha sonra, simfonik orkestrin ifasında Azərbaycan himni səsləndirildi. Azərbaycan Respublikasının dövlət bayrağı stadiona gətirildi. Stadionda quraşdırılan elektron tablolarda azərbaycanı dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirildi. Son məşəlçi, iki dəfə paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Yan Sibeliusun "5-ci Simfoniya"sının sədaları altında Birinci Avropa Oyunlarının məşəlini gətirdi.





Sonra komandaların paradı başladı. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onun arxasınca əlifba sırası ilə keçdilər. İdmançıların keçidini ev sahibi – Azərbaycan atletləri tamamladılar. Onların keçidi Mənsum İbrahimovun ifasında "Qarabağ şikəstəsi" muğamı ilə müşayiət olunurdu. Digər ölkə idmançılarının keçidi zamanı isə Üzeyir Hacıbəyov, Fikrət Əmirov və Qara Qarayevin müxtəlif əsərlərinin texno musiqi üslubunda işlənmiş versiyaları səsləndirildi.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəldilər. İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və Patrik Hikki mərasimdə çıxış etdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birinci Avropa Oyunlarını açıq elan etdi. Stadionun ətrafında atəşfəşanlıq başlandı. Daha sonra, stadionun işıqları söndürüldü. Qaranlıqda uçan xalça üzərində Alim Qasımov muğam oxudu.

Rəngbərəng fişənglər Xəzərin və Bakı Olimpiya Stadionunun üzərində səmanı bəzədi və möhtəşəm bayram mənzərəsi yaratdı. Atəşfəşanlığın qızğın vaxtında ifaçılar səhnə boyunca düzüldülər. Onlar əl-ələ verib "Yallı" oynadılar. Nar dənəsi rəngində 20 min şar tamaşaçıların üzərinə səpələndi və 2015 Avropa Oyunlarının açılış mərasimi başa çatdı.





# BİRİNCİ AVROPA OYUNLARINDA



Bütün qitə üçün böyük əhəmiyyət daşıyan "Bakı-2015" birinci Avropa Oyunlarına iyunun 12-də start verilib.

Oyunların ilk günündə Bakı Su İdmanı Sarayında sinxron üzgüçülük üzrə cütlük və komanda yarışları təşkil olunub.

Cütlüklərin yarışında Azərbaycanı Tatyana Nikitina və Yekaterina Valiulina təmsil edib. Cütlüyümüz 19 ölkədən olan rəqiblərinə qarşı mübarizə aparıb.

***

İyunun 13-də kişilər arasında kumite yarışlarında 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Rafael Ağayev finalda italiyalı Luici Busanı 1:0 hesabı ilə məğlub edərək birinci yeri tutub.

Kişilər arasında kumite yarışlarında 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Firdovsi Fərzəliyev finalda italiyalı Luka Mareskanı 4:0 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev güləşçimizin uğurlu çıxışını izləyib.

Beləliklə, o ilk Avropa Oyunlarının birinci azərbaycanlı çempionu kimi adını ölkəmizin və qitənin idman tarixinə yazdırıb.

İyunun 13-də – "Bakı-2015" birinci Avropa Oyunlarının ikinci günündə Azərbaycan idmançıları hamıdan çox - 7 medal qazansalar da, yığmamız ümumi komanda hesabında ikinci sırada qərarlaşıb. Azərbaycan atletlərinin hesabındakı medallardan 3-ü qızıl, 1-i gümüş, 3-ü isə bürüncdür.

***

İyunun 14-də – birinci Avropa Oyunlarının üçüncü günündə Azərbaycan idmançıları medalların sayını 8-ə çatdırıblar.

Komandamıza səkkizinci medalı kişilər arasında triatlon yarışında mübarizə aparan Rostislav Pevtsov qazandırıb. O, yarışın sonunda 1 saat 49 dəqiqə 4 saniyəlik nəticə göstərib.

***

İyunun 15-də Heydər Əliyev adına İdman Sarayında "Bakı-2015" birinci Avropa Oyunları çərçivəsində qadınlar arasında sərbəst güləş yarışları keçirilib.

Millimizin üzvü Mariya Stadnik bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva final qarşılaşmasını izləyiblər.

Azərbaycanın birinci xanımı, "Bakı-2015" birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva medalları qalib idmançılara təqdim edib.

Qalib idmançımızın şərəfinə Azərbaycanın dövlət himni səslənib, üçrəngli bayrağımız qaldırılıb.

Əlli beş kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan güləşçisi Natalya Sinişin də yarışa səkkizdə bir finaldan başlayıb. Yalnız yarımfinalda uduzan Natalya Sinişin bununla bürünc medal uğrunda mübarizə aparmaq hüququ qazanıb. Üçüncü yer uğrunda görüşdə Ukrayna idmançısı Tatyana Kitlə qarşılaşan Natalya Sinişin rəqibini 10:0 hesabı ilə məğlub edərək bürünc mükafata sahib olub.



***

İyunun 16-da Azərbaycanın qadın güləşçisi Anjela Doroqan birinci Avropa Oyunlarında qızıl medal qazanıb. Bununla da Azərbaycanın birinci Avropa Oyunlarındakı qızıl medallarının sayı 8-ə çatıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva Azərbaycan güləşçisinin final qarşılaşmasını izləyiblər.

***

İyunun 17-də Azərbaycan birinci Avropa Oyunlarında qazandığı qızıl medalların sayını 11-ə çatdırıb. Bu uğura taekvondoçumuz Ayxan Tağızadə imza atıb.

***

İyunun 18-də keçirilən taekvondo yarışlarında iki idmançımız fərqlənib. Milad Beiqi Harçeqani qızıl, Fəridə Əzizova isə gümüş medalın sahibi olublar. Bununla da birinci Avropa Oyunlarında Azərbaycanın aktivinə yazılan qızıl medalların sayı 12-yə çatıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri "Baku Crystal Hall"da keçirilən yarışlarda idmançılarımızın final qarşılaşmalarını izləyiblər.



Prezident İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.

Qalib idmançının şərəfinə Azərbaycan Respublikasının dövlət himni səsləndi, dövlət bayrağı ucaldıldı.

***

İyunun 19-da tarixdə ilk dəfə təşkil edilən I Avropa Oyunları çərçivəsində güləş yarışlarına yekun vurulub. Azərbaycan güləşçiləri "Bakı-2015"-də uğurla çıxış edərək ümumilikdə 15 medal qazanıblar.

Heydər Əliyev adına İdman Sarayında güləş yarışlarının son günündə – iyunun 18-də sərbəst güləş üzrə 61, 70, 86 və 125 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib.

Yarışda 61 kiloqram çəki dərəcəsində mübarizə aparan Avropa və dünya çempionu Hacı Əliyev ilk görüşdə Ermənistan idmançısı Valodya Franqulyan üzərində qələbə qazanıb. Ardınca Slovakiya təmsilçisi Mikola Bolotnyuk da güləşçimizlə bacarmayıb. Yarımfinalda Rusiya güləşçisi Aleksandr Boqomoyevlə gərgin görüş keçirən Hacı Əliyev finala adlaya bilməyib. Ancaq həlledici görüşdə Türkiyə təmsilçisi Munir Recep Aktaşı asanlıqla məğlub edən Hacı Əliyev birinci Avropa Oyunlarının bürünc medalını qazanıb.

Ruslan Dibirhacıyev (70 kq) də Avropa Oyunlarının bürünc medalını qazanıb.

Yarışda 125 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Cəmaləddin Məhəmmədov Avropa Oyunlarının bürünc medalına sahib olub.

Xatırladaq ki, sərbəst güləşçilərimiz ilk yarış günündə 2 qızıl və 1 bürünc medal əldə ediblər. Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq) qızıl, Cəbrayıl Həsənov (74 kq) isə bürünc medala layiq görülüblər.

Güləş yarışının ilk iki günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz iki dəst medal qazanıblar. Rəsul Çunayev (71 kq) və Elvin Mürsəliyev (75 kq) qızıl, Rafiq Hüseynov (80 kq) və Sabah Şəriəti (130 kq) gümüş, Elman Muxtarov (59 kq) və Həsən Əliyev (66 kq) bürünc medala sahib olublar.

Qadın güləşçilərin mübarizəsində isə idmançılarımız 2 qızıl və 1 bürünc medal qazanıblar. Qızıl medalları yığmamıza Mariya Stadnik (48 kq) və Anjela Doroqan (53 kq), bürüncü isə Nataliya Sinişin (55 kq) qazandırıblar.

I Avropa Oyunları davam edir.

# LƏNKƏRANLILARIN ÜRƏK SÖZLƏRİ

Bakıda I Avropa Oyunlarının açılış mərasimi möhtəşəm idman hadisəsi oldu. Bu, təkcə avropalı idmançıları deyil, həm də qitənin bütün sakinlərini birləşdirdi. Bütün dünyanın böyük maraqla izlədiyi açılış mərasimi möhtəşəmliyi və rəngarəngliyi ilə yadda qaldı. Təbii ki, bütün azərbaycanlılar kimi mən də qürur hissi keçirdim. Dünyanın əksər ölkəsində birbaşa yayımlanan açılış mərasiminin xanəndə Alim Qasımovun canlı muğam ifası ilə açılması ürəyimizdən xəbər verdi. Diqqət ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayımın başlanması 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirməsi oldu. Bununla da Azərbaycan müstəqil dövlət kimi bu gün uğurlu, dayanıqlı inkişafını bir daha dünyaya bəyan etdi.

Bütün xalqımız da əmindir ki, bu oyunlar sadəcə I Avropa Oyunları kimi deyil, eyni zamanda, ən gözəl oyunlar kimi tarixdə qalacaq, Azərbaycana gələn idmançılar və xarici qonaqlar, turistlər Azərbaycanı daha yaxından tanıyacaq, onun necə gözəl, müasir, güclü, sülhsevər və qonaqpərvər ölkə olduğunun şahidi olacaqlar.

**Ülviyyə ƏLİYEVA,**
**məktəb direktoru**

* * *

I Avropa Oyunlarının açılış mərasimini ekran vasitəsilə izlədim. Mən inana bilmirdim ki, bu möhtəşəm və qeyri-adi açılış mərasimi məhz bizim ölkəmizdə baş verir. Milyonlarla azərbaycanlı kimi, mən də bundan qürur duydum. Bu, həm də Azərbaycanın dünya miqyasında dinamik inkişafının, müasir və güclü ölkə kimi təqdim edə bilməsinin, bir sözlə, Azərbaycanın inkişafının parlaq təzahürü idi. Açılış mərasimində Azərbaycan və Avropa mədəniyyətinin sintezlə təqdim olunması da bizi çox sevindirdi. Burada nümayiş etdirilən bütün kompozisiyalar çox möhtəşəm idi və Azərbaycanın tarixini, mədəniyyətini, musiqisini və s. aydın əks etdirirdi.

**Bəsirə İSLAMOVA,**
**tibb bacısı**

* * *

Ölkəmizin paytaxtı Bakıda baş tutan möhtəşəm I Avropa Oyunları hamımızın böyük sevincinə səbəb olmuşdur. Xüsusilə I Avropa Oyunlarının açılış mərasimi biz gənclərdə də böyük qürur hissi doğurdu. Hər şeydən əvvəl, ona görə ki, Azərbaycan Birinci Avropa Oyunlarının açılış mərasimində öz tarixini, mədəniyyətini, musiqisini və müasirliyini nəinki Avropaya, hətta bütün dünyaya təqdim edə bildi. Doğrudan da bu, Azərbaycan üçün tarixi bir şans idi.

Açılış mərasimində səsləndirilən muğam, Azərbaycan xalçalarının naxışlarını əks etdirən görüntülər, Qobustan qayaüstü rəsmləri, ümumiyyətlə, bütün kompozisiya çox möhtəşəm idi. Burada Azərbaycan musiqisi ilə yanaşı, Avropa bəstəkarlarının musiqilərinin də səsləndirilməsi xoşuma gəldi. Bir sözlə, I Avropa Oyunlarının açılışı öz möhtəşəmliyi ilə yadda qaldı. Bu kompozisiyanın təşkilində zəhməti olan hər kəsə dərin minnətdarlığımı bildirirəm.

**Nərgiz AĞAZADƏ,**
**tələbə**

* * *

Hamımızın böyük səbirsizliklə gözlədiyi gün – I Avropa Oyunlarının açılış mərasimi, nəhayət ki, gəlib çatdı. Bakının Olimpiya stadionunda baş tutan açılış mərasimi çox yaddaqalan və mükəmməl oldu. Dünyanın 57 ölkəsində canlı yayımlanan bu mərasimi tamaşaçılar kimi, mən də böyük maraqla izləyirdim. Açılış mərasimindəki kompozisiyalar bir-birindən rəngarəng və maraqlı idi. Azərbaycanın milli bayramı olan Novruzun 4 ünsürünü təcəssüm etdirən kompozisiya isə mənim daha çox xoşuma gəldi. Bu, həm də Azərbaycanın milli ruhunu təcəssüm etdirirdi. Açılış mərasiminin rəngarəngliyi və möhtəşəmliyi Azərbaycanın inkişafının dünya qarşısında daha bir təsdiqi oldu, – desəm, məncə yanılmaram. Bir azərbaycanlı kimi mən də bununla fəxr edirəm.

**Nəzrin HÜSEYNLİ,**
**arxiv işçisi**

# LƏNKƏRANLI GƏNCLƏRDƏN I AVROPA OYUNLARINA DƏSTƏK

I Avropa Oyunlarının ilk dəfə Bakıda keçirilməsinin və oyunlara start gününün sevincini lənkəranlı gənclər bir yerdə bölüşüblər. Ötən gün şəhərin park və meydanlarında idmançılarımıza dəstək məqsədilə bir-birindən maraqlı aksiyalar təşkil edilib. Rayon gəncləri bu aksiyalarda şən əhval-ruhiyyədə iştirak edərək sevinc hisslərini, yüksək bayram ovqatı nümayiş etdiriblər.

Sıralarında 65 minə yaxın gənci birləşdirən Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi Yalçın Əhmədov tədbirin gənc könüllülərin təşəbbüsü ilə təşkil edildiyini bildirərək qeyd etdi ki, bu gün bütün azərbaycanlıların sevinc günüdür. Birinci Avropa Oyunları artıq başlanıb. Lənkəranlı gənclər bu oyunlarda iştirak edən idmançılarımıza dəstək olurlar. Bugünkü konsert proqramı da könüllülərin təşəbbüsü ilə bu məqsədlə təşkil olunmuşdur.

Gənc könüllü Orxan Cahangirov vurğuladı ki, bütün dünyanın diqqəti Azərbaycandadır. Bir gənc olaraq mən sevinib fəxr edirəm. Biz lənkəranlı gənclər sevincimizi birlikdə bölüşürük.

Könüllü Arzu Məmmədzadə qeyd etdi ki, bu gün Azərbaycanda tarix yazılır. İlk Avropa Oyunlarına Bakıda start verilir. Doğrudan da, bu, Azərbaycan Respublikası üçün çox böyük uğurdur. Bu, Azərbaycanın digər ölkələrdən fərqini göstərəcək. Hamımız üçün çox sevindirici haldır.

Bir neçə saat davam edən konsert zamanı parka toplaşan gənclər maraqlı musiqi nömrələri və rəqs nümunələri ilə tanış olmaq imkanı əldə etdilər. Gənclər sevinclərini, bacarıqlarını nümayiş etdirərək məmnun olduqlarını nümayiş etdirdilər.

Gənclərin iştirakı ilə birinci Avropa Oyunlarının loqosunun əks olunduğu tort kəsilib.

Tədbirə qatılanlar Birinci Avropa Oyunlarının açılış mərasimini monitordan sona qədər böyük maraq və diqqətlə izləyiblər.

# YOLLAR ASFALTLANIR, KÖRPÜLƏR SALINIR...

## QAYĞININ YENİ TƏZAHÜRÜ



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Lənkəran şəhəri son illərdə daha da gözəlləşir, yeniləşir və abadlaşır. Dövlət başçısının "Lənkəran şəhərinin daxili avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsinə dair əlavə tədbirlər haqqında" 14 aprel 2015-ci il tarixli Sərəncamı məhz bu qayğının yeni təzahürüdür. Qeyd edək ki, Lənkəran şəhərinin daxili avtomobil yolları müasir tələbata cavab vermirdi. Lənkərana növbəti səfərindən sonra məhz bu problem dövlət başçısının yeni Sərəncamı ilə öz həllini tapdı. Artıq Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşovun rəhbərliyi ilə bu Sərəncam uğurla icra edilir.

Sərəncamın icrasına iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adını daşıyan Xiyabandan start verildi. Xiyaban qısa müddətdə tam asfaltlaşdırıldı. Bundan sonra H.Əliyev prospekti, Akademik Zərifə Əliyeva, Ş.Axundov, P.Təhməzov, Molla Məhəmmədhüseyn Axund, Şəhidlər Xiyabanı, Səttərxan, Kələntərlilər, Vaqif, Nizami, Koroğlu, Tariyel Abdullayev, İ.Səmədzadə, M.Nəsirli, Füzuli və digər küçələrinin asfaltlaşdırılması başa çatdırıldı. İndi həmin yollarda istər piyadaların, istərsə də nəqliyyat vasitələrinin rahat gediş-gəlişi təmin olunmuşdur.

Bu diqqət və qayğıya görə möhtərəm Prezidentimizə öz minnətdarlığımızı bildirir, Vətənimizin tərəqqisi, xalqımızın rifahı naminə fəaliyyətində ona daha böyük uğurlar arzulayırıq.

**Aslan İBRAHİMOV,**
**Lənkəran şəhəri, Həzi Aslanov Xiyabanının sakini**

## MƏRKƏZİ KOLXOZ BAZARININ ƏRAZİSİNDƏ SƏLİQƏ-SAHMAN YARADILDI



Vətəndaşların ən çox müraciət etdiyi yer, şübhəsiz ki, Mərkəzi kolxoz bazarıdır. Buraya yerli və qonşu rayonların sakinləri ilə yanaşı, eyni zamanda, qonaqlar və xarici turistlər də gəlirlər. Alıcıları, ilk növbədə, malların çeşidi və keyfiyyəti, o cümlədən ətrafın və ərazinin səliqə-sahmanı daha çox düşündürür. Ancaq, gəlin etiraf edək ki, şəhərimizin kolxoz bazarında mövcud vəziyyət heç də ürəkaçan deyildi. Xüsusilə Mirmustafaxan, Nizami, Koroğlu və İ.Səmədzadə küçələrinin səkiləri satıcılar tərəfindən zəbt edilmiş, həmin ərazilərdə nəqliyyat vasitələrinin və piyadaların gediş-gəlişi üçün böyük maneələr yaranmışdı.

Artıq bir aya yaxındır ki, adı çəkilən küçələrdə təmizlik və abadlıq işləri görülmüş, alış-veriş tamamilə yığışdırılmışdır. Nəticədə həm alıcılar, həm də avtomobil sahibləri əraziyə giriş-çıxışdan daha rahat istifadə edirlər. Bu şəraiti yaradanlara əhali adından minnətdarlığımızı bildiririk.

**Namik MƏMMƏDOV,**
**Lənkəran şəhər sakini, sürücü**

## BOLADİÇAYIN ÜSTÜNDƏKİ KÖRPÜ YENİDƏN TİKİLİR

Regionların sosial-iqtisadi inkişafı haqqında üçüncü Dövlət Proqramı Respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da uğurla həyata keçirilir. Təsadüfi deyil ki, burada tikinti, abadlıq və yenidənqurma işləri geniş vüsətlə aparılır. Eyni zamanda, rayonun qəsəbə və kəndlərində qazlaşdırma, elektrik kabelləşdirmə işləri gündən-günə sürətləndirilir.

Bu yaxınlarda Boladi çayının üstündəki (Liman ərazisində, Bakı-Astara magistral yolunda) körpü ağır tonnajlı yük maşınının ağırlığına dözməyib uçmuş və çatlardan yararsız hala düşmüşdü. Dərhal dövlət səviyyəsində işlər aparıldı.

"Azərkörpü" tikinti idarəsinin sürətli işi sayəsində körpü tezliklə bərpa edildi,demək olar ki, yenidən tikilir. Artıq son tamamlama işləri gedir. Biz göstərilən bu qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlığımızı bildiririk.



**Səyavuş SÜLEYMANLI,**
**Liman şəhər Ağsaqqallar Şurasının sədri**

## AŞAĞI NÜVƏDİ QƏSƏBƏSİNDƏ YENİ KÖRPÜ TİKİLİR

Yaxşı deyirlər ki, yol abadlıq və mədəniyyət nişanəsidir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq qəsəbəmizin yollarının asfaltlaşdırılmasına başlanılıb. Əlbəttə bu, sakinlərimizin sevincinə səbəb olub. Axı abad yol istər nəqliyyat vasitələrinin, istərsə də piyadaların rahat gediş-gəlişini təmin edir.

Lakin qəsəbəmizdə mövcud körpülərin yenidən qurulmasına böyük ehtiyac vardı. Artıq Lənkəran Şəhər İcra Hakimiyyətinin daxili imkanları hesabına 3 körpü istifadəyə verilib. Hazırda iyun ayının əvvəlindən yeni körpünün tikintisinə başlanılıb. Sayca 4-cü olan bu körpü qəsəbənin qurtaracağında, Kənarmeşə kəndinə gedən yolun üstündə tikilir.

Qeyd edim ki, əvvəllər bu körpü çox yararsız vəziyyətdə idi, hətta onun uçulmaq təhlükəsi vardı. Təbii ki, bu da nəqliyyatın hərəkəti üçün ciddi təhlükə törədirdi. Nəhayət, tezliklə bütün bu narahatlığa son qoyulacaq. Çünki ağır texnika və kifayət qədər işçi qüvvəsi cəlb edilmiş körpünün tikintisində hazırda qızğın iş gedir.



**Məlik ƏLİYEV,**
**Aşağı Nüvədi qəsəbəsinin sakini**

## VİLVANDA YENİ KÖRPÜ İSTİFADƏYƏ VERİLDİ



Vilvan kəndində uzunluğu 42, eni 14 metr olan dəmir-beton konstruksiyalı körpü istifadəyə verilmişdir. Bu, kəndin Mollaoba məhəlləsində yaşayan sakinlərin hədsiz sevincinə səbəb olmuşdur. Axı məhəllədən keçən Viravul çayı üstündə inşa olunan bu körpü ilkin vəziyyətdə ciddi fəsadlar törədirdi. Aramsız yağan leysan yağışları nəticəsində körpü dəfələrlə uçulmuş, yaxınlıqdakı evlərin həyətlərini su basmış və nəqliyyat vasitələrinin normal hərəkətinə manеə yaratmışdı. İndi isə artıq bu narahatlıq arxada qalmışdır.

Lənkəran Şəhər İcra Hakimiyyətinin daxili imkanları hesabına Vilvan kəndinin Mollaoba məhəlləsində tikilən körpünün xidmətindən artıq həm nəqliyyat vasitələri, həm də piyadalar istifadə edirlər.

Kəndimizdə yeni körpünün istifadəyə verilməsi və əhalinin rahatlığının təmin edilməsinə görə Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşova minnətdarlığımızı bildiririk.

**Güloğlan MİRZƏYEV,**
**Vilvan kənd sakini**

## SEVİNCİMİZ HƏDSİZDİR



Şəhərimizdə, rayonun qəsəbə və kəndlərində genişmiqyaslı tikinti, quruculuq, abadlıq və səliqə-sahman işləri uğurla davam edir. Lənkəranın ən iri yaşayış məntəqələrindən biri olan Nərimanabad qəsəbəsində də bu istiqamətdə xeyli iş görülmüşdür. Ən əsası möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə qəsəbəmizin avtomobil yolunun asfaltlaşdırılmasıdır. Aprelin 11-də həmin yolun açılışında dövlət başçımızın şəxsən iştirak etməsi əhalinin hədsiz sevincinə səbəb olmuşdur. Biz indiyədək bu əlamətdar hadisənin xoş təəssüratlarını yaşayırıq.

Bu günlərdə hamılıqla daha bir sevinc hissini keçiririk. Belə ki, Nərimanabad qəsəbəsində və Üzümçülük yaşayış məntəqəsində mənzillərə təbii qaz xəttinin çəkilişi tam başa çatdırılmışdır. Abonentlərin ümumi sayı 945 nəfərdir. Ərazimizin sakinləri hazırda bu yaxınlarda reallaşacaq "mavi alov"un açılış gününü səbirsizliklə gözləyirlər.

Bizə daha bir sevinc bəxş etdiyinə görə möhtərəm Prezidentimiz İlham Əliyevə bütün əhalimiz adından dərin minnətdarlığımızı bildiririk.

**Hacı Abuzər KƏRİMOV,**
**Nərimanabad qəsəbə sakini**

## 2015-ci il "Kənd təsərrüfatı ili"dir

# "GİLAN AQRO-SİTRUS" TƏSƏRRÜFATINDA



Prezident İlham Əliyevin "2015-ci ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında" Sərəncam imzalaması dövlətin aqrar sahəyə diqqətinin növbəti əyani göstəricisidir.

Təsdiq edilmiş tədbirlər planına uyğun olaraq aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. "Kənd təsərrüfatı ili" çərçivəsində iri təsərrüfatların yaradılması da nəzərdə tutulur. Lənkəranda yeni yaradılan "Gilan aqro-sitrus" təsərrüfatı məhz bu qəbildəndir.

Yeni sitrus təsərrüfatının ümumi sahəsi 45 hektardır. Hazırda 15 hektar sahədə "Gilan aqro" şirkəti tərəfindən Cənubi Koreyadan gətirilən 20 min ədəd "Shiranuhi" (Hallabong) və "Kanpei" (Red Hyaang) sitrus ağacları əkilib. Təsərrüfatda işlər davam etdirilir. Yeni salınmış sitrus təsərrüfatında 140 nəfərin daimi işləməsi nəzərdə tutulur.

Gələcəkdə təsərrüfat genişləndiriləcək 500 hektara yaxın ərazini əhatə edəcək. O cümlədən dağətəyi ərazilərdə terras əkin üsulu ilə sitrus plantasiyaları salınacaq. Aparılacaq işlərin nəticəsində bölgədə istifadəsiz qalmış torpaqlar yenidən kənd təsərrüfatı dövriyyəsinə qaytarılacaq və 2000 yeni daimi iş yerinin yaranmasına imkan verəcək. Burada suvarma ilkin olaraq damcı üsulu ilə həyata keçiriləcək, sonradan bununla yanaşı, çiləmə üsulundan da istifadə edilməsi nəzərdə tutulub. Becərilən məhsuldar sitrus növlərindən yüksək dad keyfiyyətlərinə və əmtəəlik xüsusiyyətlərə malik meyvələr əldə ediləcək. Bu növlərin məhsuldarlığı hektarda orta hesabla 35-45 tona çatır ki, bu da yerli növlərdən 2-3 dəfə çoxdur. İstehsal olunmuş meyvələrdən təzə halda və qida, qənnadı, kosmetik, ətriyyat və digər sənaye sahələrində, həmçinin şirə istehsalında və şərabçılıqda istifadə edilməsi nəzərdə tutulur. O cümlədən daxili bazarda satış üçün rayonda mövcud olan Gilan-Lənkəran konserv zavodunda meyvə şirəsi istehsal olunacaq. Sitrus təsərrüfatında ümumilikdə 1800 ton məhsul götürüləcək. Bu da 180 min nəfərin illik istehlak normasına bərabərdir.

Hazırda sitrus ağaclarına aqrotexniki qaydalar səviyyəsində gündəlik qulluq göstərilir, suvarmaya ciddi nəzarət edilir.

**Fərman ABDULLAYEV,**
**Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutu Lənkəran Çay və Sitrus Bitkiləri filialının direktoru**

# MEŞƏ MÜHAFİZƏSİ VƏ BƏRPASI MÜƏSSİSƏSİNDƏ SEMİNAR-MÜŞAVİRƏ



İyunun 5-də Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi Lənkəran rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsində "Dənli və texniki bitkilərin yığılması, daşınması və emalı dövründə, eləcə də meşə zolaqlarında, milli parklarda və dövlət qoruqlarında yanğın təhlükəsizliyinin təmin edilməsi" mövzusunda seminar-müşavirə keçirmişdir.

Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə FHN-in Cənub Regional Mərkəzi ilə Lənkəran rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsi arasında tərtib olunmuş qarşılıqlı fəaliyyət planının müvafiq bəndlərinin icrasına uyğun olaraq reallaşan təd-birdə Lənkəran Şəhər İcra Hakimiyyəti, bələdiyyələr, yerli icra nümayəndələri, FHN-in regionda fəaliyyət göstərən qurumları, Lənkəran rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin kollektivi iştirak etmişdir.

Tədbir zamanı "Meşə yanğınları və onlarla mübarizə üsulları", "FHN-in Cənub Regional Mərkəzi tərəfindən fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr", "Hansı hallarda 112 qaynar xəttilə əlaqə saxlamaq lazımdır", "Yanğının baş vermə amilləri, ona qarşı mübarizə tədbirləri. İdarə və müəssisələrin təxliyyə planlarının hazırlanması" mövzularında çıxış edən natiqlər fövqəladə halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması zamanı qarşılıqlı fəaliyyətin təşkili, meşələrdə yanğın təhlükəsizliyi, ilkin yanğınsöndürmə avadanlıqları və fərdi mühafizə vasitələrindən istifadə qaydaları, dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğın və texniki təhlükəsizliyin təmin olunması ilə əlaqədar qarşıda duran vəzifələr barədə geniş məlumatlar vermiş, tədbir iştirakçılarını maraqlandıran sualları ətraflı cavablandırmışlar.

Sonda müxtəlif mövzularda hazırlanmış video çarx və foto slaydlar nümayiş etdirilmiş, bu sahədə yanğın və texniki təhlükəsizlik qaydalarını təbliğ edən yaddaş kitabçaları və xəbərdarlıq vərəqələri tədbir iştirakçılarına paylanılmışdır.

**FHN CRM-nin İctimaiyyətlə əlaqə və təbliğat sektoru**

# TAXIL YIĞIMI ZAMANI YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

Bu gün taxıl tədarükü iqtisadiyyatımızda gündəmdə olan prioritet sahələrdəndir. Təsadüfi deyildir ki, son illərdə taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçımız və hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.

Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi də daim diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Zəmilərin yaşıl örpəyinin qızılı donla əvəz olunduğu, kombaynların sahələrə çıxdığı, yəni taxıl yığımı, mal-qara üçün silos, senaj, quru ot tədarükü görüldüyü mövsümdə müxtəlif dənli və texniki bitkilərin, o cümlədən taxılın, həmçinin qaba və şirəli yemlərin yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd olunmalıdır ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin – təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır.

Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı əməkçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan əvvəl mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitələri ilə tam təmin etməlidirlər.

Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün əmrlə cavabdeh şəxslər təyin edilməlidir.

Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən texnikanın hamısı işə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab verməlləri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir.

Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda həmin traktor mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir.

Mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özühərəkət edən kənd təsərrüfatı texnikalarının akkumlyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plasmas bor?larla mühafizə olunmalıdır.

Yığımda iştirak edən texnikaların yanğın təhlükəsizliyi tələblərinə uyğun olması hər bir müəssisədə təşkil olunmuş xüsusi komissiya tərəfindən yerli Dövlət Yanğın Nəzarəti orqanı əməkdaşı ilə birgə yoxlanılmalıdır.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar adam tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəklikdən buraxmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikanın sahələrdə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması qəti qadağandır.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirəsalınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr məsafədə tayaya vurulmalıdır. Taxıl yetişən zaman cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədilə xüsusi keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən daşınmalıdır.

Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir.

Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində "Siqaret çəkmək yeri" yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır.

Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədilə onların vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların, digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir və o, böyük zəhmət hesabına yetişdirilir.

Elin bu əvəzsiz sərvətini yanğından qoruyun!

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti**

# LƏNKƏRANDAN NOVOSİBİRSKƏ YENİ AVİAREYS AÇILDI




Rusiyanın Novosibirsk şəhərindən Lənkəran şəhərinə davamlı aviareys açılıb. "Anqara" Hava Şirkətinə məxsus 75 sərnişinlik Rusiya istehsalı olan "An-148" tipli təyyarə iyunun 14-də Bakı vaxtı ilə saat 06.45-də Novosibirskdən uçaraq vaxtından 20 dəqiqə əvvəl – saat 10.40 radələrində Lənkəran Beynəlxalq Hava Limanında yerə enib. Beləliklə, Rusiyanın Sibir regionunda, xüsusən də Novosibirsk əyalətində yaşayan Azərbaycanın cənub bölgəsinin sakinlərinin yol narahatlığına bu gündən son qoyulub.

Təyyarənin ilk sərnişinlərini, həmçinin rusiyalı qonaqları Lənkəran Beynəlxalq Hava Limanının rəisi Anar Axundov və kollektivi gül-çiçək dəstələri ilə qarşılayıblar.

Yeni reysin ilk sərnişinlərindən olan Separadi kənd sakini Elşad İsmayılov təəssüratlarını bölüşərək bildirib ki, Novosibirskə aviareysin açılması bizi çox sevindirir. Çünki bu reys yolumuzu qısaldıb. Artıq bir neçə məntəqə dəyişmədən yaxınlarımızın yanına rahatlıqla gedə biləcəyik. Həmçinin bizə göstərilən diqqət və qayğıdan da çox razıyıq. Buna görə də hər iki dövlətin başçılarına təşəkkür edirəm.

Novosibirskin "Tolmaçovo" Beynəlxalq Hava Limanının nümayəndəsi İqor Leontyev isə əlamətdar hadisəni qeyd etmək üçün məxsusi olaraq bu reyslə uçub gəldiyini bildirib. Qonaq yeni reysin istər Novosibirsk, istərsə də Lənkəran üçün mühüm əhəmiyyət kəsb edəcəyini vurğulayıb.

"An-148" təyyarəsinin kapitanı Vladimir Tanurin də ürək sözlərini aşağıdakı sətirlərlə ifadə edib: "Biz bu gün daha bir beynəlxalq uçuşumuzu həyata keçirdik. Bundan əvvəl isə Ulan-Bator və Astana istiqamətlərinə uçuşlarımız olmuşdu. Bu gün isə növbə Lənkərana çatdı. "Anqara" Hava Şirkəti gündən-günə inkişaf edir. Biz dünyanın bir sıra hava şirkətləri ilə əməkdaşlıq və dostluq etməyə can atırıq. Prezidentimiz sizin respublikaya gəlib, biz də bu gün buradayıq. Bizi Lənkəranda yerli əhali coşqu ilə qarşıladı. Biz belə qonaqpərvərlikdən məmnunluq hissi keçiririk".

Novosibirsk – Lənkəran – Novosibirsk birbaşa reysi hələlik həftədə bir dəfə uçuş həyata keçirəcək. Tələbat duyulacağı təqdirdə reyslərin sayının artırılması istisna deyil.

Elə həmin gün saat 12.00 radələrində "An-148" təyyarəsi Lənkərandan Novosibirskə yola düşüb.

Qeyd edək ki, aviareyslə uçuş müddəti 4 saat 40 dəqiqə təşkil edir. Biletin birtərəfli gediş qiyməti 270 manatdır.

**Ağaddin BABAYEV,**
**(foto müəllifindir).**




# HACI NƏBİYULLA ƏMİRƏLİ OĞLU BAXŞIYEV



Lənkəran ictimaiyyətinə ağır itki üz vermişdir. Təcrübəli və təqaüddə olan bank işçisi, rayon Ağsaqqallar Şurasının və Lənkəran bələdiyyəsinin üzvü Baxşıyev Hacı Nəbiyulla Əmirəli oğlu 2015-ci il iyun ayının 5-də ömrünün 76-cı ilində vəfat etmişdir.

N.Baxşıyev 1939-cu il oktyabr ayının 11-də Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olmuşdur. O, 1956-cı ildə Lənkəran şəhər 3 saylı orta məktəbini bitirmiş və elə həmin il Bakı Maliyyə-Kredit Texnikumuna daxil olmuşdur. Əmək fəaliyyətinə 1958-ci ildə orta ixtisas təhsilini başa vurduqdan sonra başlamışdır. Lənkəran şəhər əmanət kassasında xəzinədar işləyən N.Baxşıyev ali təhsil almağı da unutmamış, 1971-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Maliyyə-Kredit fakültəsini bitirmiş və iqtisadçı ixtisasına yiyələnmişdir. Sonralar N. Baxşıyev Lənkəran şəhər əmanət kassasının müdiri vəzifəsinə irəli çəkilmiş, 1987-ci ilə qədər bu vəzifədə çalışmışdır. O, 1988-2000-ci illərdə Əmanət Bankının Lənkəran şöbəsinin müdiri, 2000-2004-cü illərdə Birləşmiş Universal Səhmdar Bankının müdiri və 2005-2009-cu illərdə isə Kapital Bankın Lənkəran filialının müdiri vəzifələrində işləmişdir.

N.Baxşıyev çalışdığı bütün vəzifələrdə özünü bacarıqlı mütəxəssis və təşkilatçı kimi aparmışdır. O, tabeliyində olan işçilərə qarşı son dərəcə diqqətli, qayğıkeş və səmimi idi.

N.Baxşıyev ictimai-siyasi fəallığı ilə də seçilmiş və göstərilən etimadı layiqincə doğrultmuşdur. O, 2001-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü, 2004-cü ildən Lənkəran bələdiyyəsinin üzvü, sonralar Lənkəran bələdiyyəsinin iqtisadi məsələlər üzrə daimi komissiyasının sədri olmuşdur.

N.Baxşıyev bir vətəndaş kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə bərabər ictimaiyyət və yoldaşları arasında böyük hörmət qazanmışdı.

N.Baxşıyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!

**Lənkəran bələdiyyəsi**

## Topaz premyer liqası

### "XƏZƏR LƏNKƏRAN" çempionatı 7-ci pillədə başa vurdu

**Komandamız IV dövrədə aşağıdakı nəticələri göstərmişdir:**

XVIII tur: "İnter" – "Xəzər Lənkəran" - 2:0
XXIX tur: "Xəzər Lənkəran" – "Neftçi" - 2:2
XXX tur: "Araz Naxçıvan" – "Xəzər Lənkəran" -?
XXXI tur: "Xəzər Lənkəran" – "Qəbələ" - 0:1
XXXII tur: "Bakı" – "Xəzər Lənkəran" - 2:1
XXXIII tur: "Xəzər Lənkəran" – "Qarabağ" - 1:1
XXXIV tur: "Xəzər Lənkəran" – AZAL - 1:0
XXXV tur: "Sumqayıt" – "Xəzər Lənkəran" - 2:0
XXXVI tur: "Xəzər Lənkəran" – "Simurq" - 0:0

**36 turdan sonra 32 xal toplayan "Xəzər Lənkəran" çempionatı 7-ci pillədə başa vurdu.**


## ƏZİZ OXUCULAR!

2015-ci ilin II yarımilliyi üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir.

### ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 10 MANATDIR

Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə (02525) 5-24-99, (02525) 5-27-61 və redaksiyamıza (02525) 5-35-05, (02525) 5-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.

***"Lənkəran" qəzeti***


## ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov və Aparat kollektivi rayon Ağsaqqallar Şurasının üzvü
**Hacı Nəbiyulla Baxşıyevin**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Lənkəran bələdiyyəsinin sədri Eldar Hüseynov və kollektivi bələdiyyə üzvü
**Hacı Nəbiyulla Baxşıyevin**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Masallı Rayon Ağsaqqallar Şurasının sədri Hacı Cavanşir Əsədov yaxın qohumu
**Hacı Nəbiyulla Baxşıyevin**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İltifat Saleh, İltifat Əhmədov, Barat Kərimov, Etibar Əhədov, Xudaverdi Cavadov, Hafiz Mirzə, Bəxtiyar Hüseynov, Araz Yağubov, Sərraf Talıbov, Sevda Əlibəyli, Esmira İsmayılova, Natiqə Ağayeva, Əlisəfa Həsənov, Ağamir Cavad, İsmayıl Cəfərli və Azad Zülaloğlu qələm dostları, yazıçı-jurnalist **Ağaddin Babayevə,** əzizi
**Gülməmmədin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dəmir Yolları QSC-nin Həkim-Sanitar Xidməti İdarəsinin rəisi Adil Şükürov və kollektivi Lənkəran dəmir yolu həkim ambulatoriyasının baş həkimi
**İftixar Əkbərovun**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


Redaktor
İltifat ƏHMƏDOV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran şöbəsi
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@inbox.ru
Məsul növbətçi
Xudaverdi Cavadov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "CBS PP" firmasının mətbəəsində çap olunmuşdur.
Tiraj: 2840